Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

2-3 DEKABR 2026
BAKI, AZƏRBAYCAN

Marriott Hotel Boulevard

BEYNƏLXALQ KONFRANS

TƏHSİLDƏ SÜNİ İNTELLEKT: GƏLƏCƏYİN FORMALAŞDIRILMASI

UNEC dialoqundan regional təsirə



Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

BEYNƏLXALQ KONFRANS

TƏHSİLDƏ SÜNİ İNTELLEKT: GƏLƏCƏYİN FORMALAŞDIRILMASI

UNEC dialoqundan regional təsirə

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

1–3 DEKABR 2026

Konfrans haqqında

Bakı, Azərbaycan / Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

1 Dekabr
19:00-20:30

KONFRANSQABAĞI GÖRÜŞ

Qeyri-rəsmi şəbəkələşmə görüşü

Xarici qonaqları, universitet rəhbərliyini, dəvət olunmuş məruzəçiləri, tərəfdaşları və digər iştirakçıları bir araya gətirən qeyri-rəsmi görüş.

2 Dekabr
08:30-16:30

KONFRANSIN I GÜNÜ

Strateji baxış, məsuliyyətli süni intellekt və institusional hazırlıq

Qeydiyyat, əsas məruzə, panel müzakirələri, təhsil texnologiyaları və universitet təcrübəsinə dair təqdimatlar

3 Dekabr
09:30-17:00

KONFRANSIN II GÜNÜ

Süni İntellekt üzrə Fakültə Təcrübəsi, Praktiki Seminarlar və Tətbiq Strategiyası

Əsas məruzə, UNEC təcrübəsinə dair təqdimat, müəllimlər üçün vörkşoplar və bağlanış mərasimi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

2 DEKABR 2026

I Gün / Konfrans proqramı

Strateji baxış, məsuliyyətli süni intellekt və institusional hazırlıq

08:30 — **Ümummilli Lider Heydər Əliyevin məzarının ziyarət edilməsi**

09:00 - 10:00 — **Qeydiyyat**

Qonaqların qarşılanması və qeydiyyatı

10:00 - 10:40 — **Açılış mərasimi və iştirakçıların rəsmi salamlanması**

UNEC Süni İntellekt İnstitutunun video təqdimatı
Prof. Ədalət Muradov - Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru
Emin Əmrullayev - Azərbaycan Respublikasının Elm və Təhsil Naziri
Ülvi Mehdiyev - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri
Rəşad Həsənov - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirinin müavini

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

2 DEKABR 2026

I Gün / Konfrans proqramı

Strateji baxış, məsuliyyətli süni intellekt və institusional hazırlıq

10:40 - 11:20

I günün əsas məruzəsi: Məsuliyyətli süni intellekt: yüksək gözləntilərdən insanmərkəzli innovasiyaya doğru

Əsas məruzəçi: Professor Virginia Dignum - İsveçin Umeå Universitetinin məsuliyyətli süni intellekt üzrə Vallenberq professoru, AI Policy Lab tədqiqat laboratoriyasının direktoru.

11:20 - 11:35

Angelina şirkətinin Sİ məhsulunun təqdimatı

Təqdim edən: Roi Shillo - Angelina AI şirkətinin baş icraçı direktoru, İsrail

11:35 - 12:00

Kofe fasiləsi və işgüzar ünsiyyət

İştirakçılar arasında fikir və təcrübə mübadiləsi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

2 DEKABR 2026

I Gün / Konfrans proqramı

"Strateji baxış, məsuliyyətli Sİ və institusional hazırlıq"

12:00 - 13:00

I Panel

Süni intellekt dövrünün universitetində insanın peşəkar bilik və təcrübəsinin rolu: tədris, öyrənmə və müəllimlərin dəyişən vəzifələri. Süni intellekt dövründə akademik heyətin rolu necə dəyişir?

Moderator: Ravit Gonen - Süni İntellekt Layihəsinin idarə edilməsi üzrə rəhbəri, İsrail

Spikerlər:

Prof. Simon Walker - Sauthempton Universitetinin təhsilin inkişafı üzrə professoru, Böyük Britaniya
Dos. Anat Cohen - Tel-Əviv Universitetinin Elm və Texnologiya Təhsili Mərkəzinin (SATEC) rəhbəri, İsrail
Dr. Xaləddin Rzayev - Edinburq Universitetinin baş müəllimi, Böyük Britaniya
Dr. Einat Gil - təhsildə innovasiyaların idarə olunması üzrə strateji məsləhətçi, İsrail

13:00 - 14:30

Nahar fasiləsi və işgüzar ünsiyyət

Qeyri-rəsmi görüşlər və fikir mübadiləsi

14:30 - 14:45

Collage AI Sİ məhsulunun təqdimatı

Təqdimatçı: Ori Nurieli – Collage AI şirkətinin əməliyyatlar üzrə direktoru (COO), İsrail.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

2 DEKABR 2026

I Gün / Konfrans proqramı

"Strateji baxış, məsuliyyətli Sİ və institusional hazırlıq"

14:45 - 15:45

II Panel

Ali təhsildə məsuliyyətli süni intellekt: siyasət, akademik dürüstlük və qiymətləndirmə

Moderator: Dr. Vüsalə Əfəndiyeva - UNEC-in Süni İntellekt Layihəsinin rəhbəri, Azərbaycan.

Spikerlər:

Prof. Pedro Reis - Lissabon Universitetinin professoru, Portuqaliya
Nadine Salkeld - Edinburq Universitetinin mərkəz və portfel üzrə meneceri, Böyük Britaniya
Tamerlan Rəcəbov - Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universitetinin ikili diplom proqramının müəllimi, Azərbaycan
Leehee Feldman - texnologiyaların tənzimlənməsi və innovasiya sahəsində strateji məsləhətçi, təhsildə süni intellekt etikası, məxfilik və siyasət məsələləri üzrə ekspert, İsrail

15:45 - 16:15

Kofe fasiləsi

İşgüzar tanışlıq və sərbəst ünsiyyət

16:15 - 16:30

UNEC-də Süni intellekt köməkçisi: strateji yanaşma, funksional imkanlar və praktik tətbiq sahələri

Təqdimatçı: Dr. Vüsalə Əfəndiyeva - UNEC-də süni intellektin inteqrasiyası: Strategiya, tətbiq və ilkin təcrübələr

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

3 DEKABR 2026

II Gün / Konfrans proqramı

Universitet təcrübələri, vörkşoplar və praktik tətbiq üzrə yol xəritəsi

09:30 - 10:00

Qarşılama

İştirakçıların qarşılanması və qeydiyyatı

10:00 - 10:30

II günün əsas məruzəsi

Ali təhsildə süni intellektin tədrisdə tətbiqi: pedaqoji məqsədlər, praktik təcrübələr və tənqidi yanaşmalar

Əsas məruzəçi: Professor Pedro Reis Lissabon Universitetinin professoru, Portuqaliya.

10:30 - 10:45

UNEC-də Süni intellekt savadlılığının inkişafı: ilkin qiymətləndirmədən universitet miqyasında geniş tətbiqə doğru

Təqdimatçı: Anara Sahiboğlu - UNEC-in Süni İntellekt Layihəsi üzrə pedaqoji ekspert, Azərbaycan.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ

3 DEKABR 2026

II Gün / Konfrans proqramı

Universitet təcrübələri, vörkşoplar və praktik tətbiq üzrə yol xəritəsi

10:45 - 11:20

Kofe fasiləsi

Vörkşoplarda əvvəl qısa fasilə

11:20 - 12:50

Paralel vörkşoplar

Süni intellektdən istifadə zamanı akademik dürüstlüyün qorunması, mücərrəd və məntiqi təfəkkürün inkişafı, ali səviyyəli düşünmə bacarıqlarının formalaşdırılması və süni intellektin tədris və öyrənmə prosesinə səmərəli inteqrasiyası.

Workshop 1

Dr. Xaləddin Rzayev - Edinburq Universitetinin baş müəllimi, Böyük Britaniya. «Bunu kim yazıb? Süni intellekt dövründə akademik dürüstlük»

Workshop 2

Roi Shillo - Angelina AI şirkətinin həmtəsisçisi və baş icraçı direktoru, İsrail. «Gələcəyin rəqəmsal köməkçisi ilə tanış olun: universitetiniz üçün süni intellekt köməkçisi necə yaradılır?»

13:00 - 14:00

Nahar fasiləsi və işgüzar ünsiyyət

Qeyri-rəsmi görüş və müzakirələr

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

3 DEKABR 2026

II Gün / Konfrans proqramı

Universitet təcrübələri, vörkşoplar və praktik tətbiq üzrə yol xəritəsi

14:00 - 15:30

Paralel vörkşoplar

Universitetlər üçün süni intellekt əsaslı rəqəmsal köməkçilərin hazırlanması, eləcə də formativ qiymətləndirmədə süni intellektdən istifadə etməklə geribildirimin və tələbələrin öyrənmə prosesinin təkmilləşdirilməsi.

Workshop 3

Prof. Pedro Reis - Lissabon Universitetinin professoru, Portuqaliya. «Ali təhsildə formativ qiymətləndirmə üçün süni intellektdən istifadə: effektiv geribildirimdən səmərəli öyrənməyə doğru»

Workshop 4

Yalçın İslamzadə - Landau Məktəbinin fizika müəllimi və müəllim təlimçisi, Azərbaycan. «Yüksək səviyyəli düşünmə bacarıqlarının inkişafı: mücərrəd təfəkkür, məntiqi mühakimə və süni intellekt»

15:30 - 16:00

Kofe fasiləsi

Bağlanış mərasimindən əvvəl qısa fasilə

16:00 - 17:00

Qeyri-rəsmi ünsiyyət və fotoçəkiliş

Birgə fotoçəkiliş, qeyri-rəsmi görüşlər və media üçün çəkiliş

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

AÇILIŞ MƏRASİMİ

Zal: Tağıyev 2

2 DEKABR 2026 / 10:00-10:40



Prof. Ədalət Muradov
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru



Emin Əmrullayev
Azərbaycan Respublikasının Elm və Təhsil Naziri



Ulvi Mehdiyev
Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri



Rəşad Həsənov
Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirinin müavini

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

ƏSAS MƏRUZƏÇİ

Zal: Tağıyev 2

2 DEKABR 2026 / 10:40-11:20



Professor Virginia Dignum

Umeå Universitetinin məsuliyyətli süni intellekt üzrə Vallenberq professoru, AI Policy Lab tədqiqat laboratoriyasının direktoru, İsveç

Mövzu:

Məsuliyyətli süni intellekt: yüksək gözləntilərdən insanmərkəzli innovasiyaya doğru

Xülasə:

Süni intellekt işləmək, təhsil almaq və əlaqə qurmaq üsullarımızı dəyişir. Bununla belə, süni intellekt haqqında müzakirələr çox vaxt həddindən artıq gözləntilər və ya qorxular üzərində qurulur. Generativ süni intellekt və böyük dil modelləri mühüm suallar doğurur: Süni intellekt əslində nədir? Onun inkişaf istiqamətini kim müəyyən edir? İnnovasiya ilə cəmiyyət qarşısında məsuliyyət arasında tarazlıq necə təmin olunmalıdır?

Məruzədə süni intellektin qarşısıalınmaz qüvvə olması təsəvvürü tənqid edilir və onun dəyərlər və prioritetlərlə formalaşan insan qərarlarının nəticəsi olduğu vurğulanır. Süni intellektdə məsuliyyət məhdudiyyət deyil, etimadı, ədaləti və uzunmüddətli tərəqqini dəstəkləyən sistemlərin yaradılmasının əsas şərtidir. Etik layihələndirmə, idarəetmə və tənzimləmə innovasiyanı ləngitmir, əksinə, dayanıqlı innovasiyanı mümkün edir. Seçimlərin doğurduğu güzəştləri açıq müzakirə etməklə və ictimai rifahı ön plana çəkməklə süni intellektin təkcə texnoloji tərəqqiyə deyil, insanın hərtərəfli inkişafına xidmət etməsini təmin etmək mümkündür.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

I PANEL

2 DEKABR 2026 / 12:00-13:00
Zal: Tağıyev 2

MÖVZU: **Süni intellekt dövrünün universitetində insanın peşəkar bilik və təcrübəsinin rolu: tədris, öyrənmə və müəllimlərin dəyişən vəzifələri. Süni intellekt dövründə akademik heyətin rolu necə dəyişir?**



MODERATOR:
Ravit Gonen
Təhsil texnologiyaları və süni intellekt məhsulları üzrə rəhbər, İsrail



SPİKER:
Prof. Simon Walker
Təhsilin inkişafı üzrə professor, Sauthempton Universiteti, Böyük Britaniya



SPİKER:
Dos. Anat Cohen
Elm və Texnologiya Təhsili Mərkəzinin (SATEC) rəhbəri, Tel-Əviv Universiteti, İsrail



SPİKER:
Dr. Xaləddin Rzayev
Maliyyə üzrə baş müəllim, Edinburq Universiteti, Böyük Britaniya



SPİKER:
Dr. Einat Gil
Təhsildə innovasiyaların idarə olunması üzrə strateji məsləhətçi, İsrail

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

II PANEL

2 DEKABR 2026 / 14:45 -15:45
Zal: Tağıyev 2

MÖVZU: **Ali təhsildə məsuliyyətli süni intellekt: siyasət, akademik dürüstlük və qiymətləndirmə**



MODERATOR:
Dr. Vüsalə Əfəndiyeva
UNEC-in Süni İntellekt Layihəsinin rəhbəri, Azərbaycan



SPİKER:
Professor Pedro Reis
Lissabon Universiteti, Portuqaliya



SPİKER:
Nadine Salkeld
Edinburq Universitetinin mərkəz və portfel üzrə meneceri, Böyük Britaniya



SPİKER:
Tamerlan Rəcəbov
Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universitetinin ikili diplom proqramının müəllimi, Azərbaycan



SPİKER:
Leehee Feldman
Texnologiyaların tənzimlənməsi və innovasiya sahəsində strateji məsləhətçi, təhsildə süni intellekt etikası, məxfilik və siyasət məsələləri üzrə ekspert, İsrail

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

ƏSAS MƏRUZƏÇİ

Zal: Tağıyev 2

3 DEKABR 2026 / 10:00-10:40



Professor Pedro Reis

Təbiət fənlərinin tədrisi üzrə mütəxəssis,
professor

Mövzu:

Ali təhsildə süni intellektin tədrisdə tətbiqi: pedaqoji məqsədlər, praktik təcrübələr və tənqidi yanaşmalar

Xülasə:

Məruzədə süni intellektin ali təhsildə tətbiqi müəllifin universitetdəki tədris təcrübəsindən götürülmüş praktik nümunələr əsasında təhlil olunur. Süni intellektin tətbiqi özlüyündə məqsəd kimi deyil, konkret pedaqoji məqsədlərə nail olmaq üçün vasitə kimi nəzərdən keçirilir. Süni intellektin fənlərin planlaşdırılması, təlim fəaliyyətlərinin hazırlanması, formativ qiymətləndirmə, əks-əlaqənin təmin edilməsi, tədris resurslarının yaradılması və tələbələrin tənqidi düşünmə bacarıqlarının inkişafına necə dəstək verə biləcəyi göstərilir. Pedaqoji baxımdan mənalı və faydalı nəticələr əldə etmək üçün tapşırıqların düzgün tərtib edilməsinin əhəmiyyəti vurğulanır. Məruzəçi öz tədris təcrübəsində istifadə etdiyi tapşırıq nümunələrini təqdim edəcək və onların aktuallığını, məzmun dərinliyini, tənqidi düşünməni təşviq etmə imkanlarını və təlim nəticələrinə uyğunluğunu artırmaq üçün necə təkmilləşdirilə biləcəyini müzakirə edəcək. Təqdimatda süni intellektdən həddindən artıq asılılıq, səthi öyrənmə, qərəzlilik və peşəkar mühakimənin qorunması kimi məsələlərə də toxunulacaq. Məruzənin əsas mesajı ondan ibarətdir ki, süni intellektin təhsildə effektivliyi texnologiyanın özündən daha çox onun tətbiqini istiqamətləndirən pedaqoji qərarların keyfiyyətindən asılıdır.

VÖRKŞOPLAR

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ

Zal: Muxtarov

3 Dekabr 2026
11:20-12:50

VÖRKŞOP 1



Dr. Xaləddin Rzayev

Maliyyə üzrə baş müəllim, Edinburq Universiteti, Böyük Britaniya

Mövzu:

“Süni intellektdən istifadə şəraitində akademik dürüstlük”

Xülasə:

Süni intellekt dünyanı dəyişdirdiyi kimi tədrisi də dəyişdirir. Süni intellektlə necə dərs keçməliyik? Bu suala öz təcrübəmizdən praktik nümunələr vasitəsilə cavab axtaracağıq. Süni intellektdən istifadəni qadağan etməliyikmi? Bu həll yoludurmu, yoxsa əsas sual belə bir qadağanın ümumiyyətlə mümkün olub-olmamasıdır? Süni intellektin qanuni istifadəsi ilə akademik qayda pozuntusu arasındakı sərhəd haradan keçir? Qərar qəbulunda süni intellekt vasitələrinə etibar edə bilərikmi? Daha vacibi, universitetlər olaraq öz rolumuzu ümumilikdə dəyişməliyikmi?
Təlim interaktiv formatda keçiriləcək və iştirakçılar öz təcrübələrini bölüşəcəklər.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

Zal: Nağıyev

3 Dekabr 2026
11:20-12:50

VÖRKŞOP 2



Roi Shillo

Angelina AI şirkətinin həmtəsisçisi və baş icraçı direktoru, İsrail

Mövzu:

Gələcək rəqəmsal həmkarınızla tanış olun: universitetiniz üçün rəqəmsal köməkçiləri necə formalaşdırmalıyıq?

Xülasə:

Süni intellekt universitetlər üçün tələbələrə, müəllimlərə və inzibati heyətə dəstəyin təkmilləşdirilməsində yeni imkanlar yaradır. Bəs ali təhsil müəssisələri bu imkanları real ehtiyaclara cavab verən praktik rəqəmsal köməkçilərə necə çevirə bilərlər? İnteraktiv təlimdə təhsil, qəbul və inzibati xidmətlər üçün rəqəmsal köməkçilərin formalaşdırılması araşdırılır. İştirakçılar idarəetmə problemlərini aydın tələblərə çevirməyi, məsuliyyət sahələrini müəyyənləşdirməyi, etibarlı məlumat mənbələrini seçməyi, müvafiq məhdudiyyətləri və insan nəzarətini təmin etməyi öyrənəcəklər. Praktik nümunələr, istiqamətləndirilmiş müzakirələr və birgə tapşırıqlar əsasında hər bir iştirakçı öz müəssisəsində konkret ehtiyac üçün rəqəmsal köməkçi formalaşdıracaq. Diqqət proqramlaşdırmaya deyil, istifadəçilər, vəzifələr, imkanlar, icazələr və uğur meyarları barədə əsaslandırılmış qərarların qəbuluna yönələcək. Təlimin sonunda iştirakçılar məsuliyyətli və səmərəli rəqəmsal köməkçinin hazırlanması və sınaqdan keçirilməsi üçün ilkin texniki təsvirə və praktik başlanğıc planına malik olacaqlar.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

Zal: Muxtarov

3 Dekabr 2026
14:00-15:30

VÖRKŞOP 3



Professor Pedro Reis

Təbiət fənlərinin tədrisi üzrə mütəxəssis, professor

Mövzu:

Ali təhsildə süni intellektin formativ qiymətləndirməyə tətbiqi: Geribildirimdən öyrənməyə

Xülasə:

Bu interaktiv təlimdə süni intellektin ali təhsildə formativ qiymətləndirmənin təkmilləşdirilməsində yaratdığı imkanlar araşdırılacaq. Əsas diqqət qiymətləndirmə prosesinin avtomatlaşdırılmasına deyil, tələbələrə daha faydalı, konkret və fərdiləşdirilmiş geribildirimin verilməsinə, aydın qiymətləndirmə meyarlarının hazırlanmasına, özünüqiymətləndirmə bacarıqlarının inkişafına və tədris prosesinin tələbələrin ehtiyaclarına uyğunlaşdırılmasına yönəldiləcək. Təlim boyunca iştirakçılar praktik fəaliyyətlər vasitəsilə süni intellektdən istifadə edərək qiymətləndirmə rubrikləri, geribildirim şərhləri, özünüqiymətləndirmə sualları və tələbələrin öz işlərini təkmilləşdirməsinə kömək edən tapşırıqlar hazırlayacaq və onları təkmilləşdirəcəklər. Müxtəlif keyfiyyətli süni intellekt sorğularını müqayisə edəcək, əldə olunan nəticələrin keyfiyyətini və pedaqoji məqsədlərə uyğunluğunu qiymətləndirəcək, həmçinin bu yanaşmaların müxtəlif fənlərin xüsusiyyətlərinə və tədris kontekstlərinə necə uyğunlaşdırıla biləcəyini müzakirə edəcəklər. Təlimdə müəllimin peşəkar mühakiməsinin və qərarvermə müstəqilliyinin qorunmasına, süni intellektdən məsuliyyətli istifadəyə və tələbələrin öz öyrənmə prosesləri üzərində düşünməsinin təşviqinə xüsusi diqqət yetiriləcək. Eyni zamanda, səthi, qeyri-dəqiq və həddindən artıq ümumi geribildirimdən yayınmaq, geribildirimi tələbələrin irəliləyişini dəstəkləyən səmərəli öyrənmə vasitəsinə çevirmək yolları araşdırılacaq. Təlimin sonunda iştirakçılar əldə etdikləri bilik və praktik təcrübə əsasında öz dərslərində tətbiq edə biləcəkləri konkret strategiyalar, qiymətləndirmə nümunələri və süni intellekt üçün sorğu şablonları ilə tanış olacaqlar.

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

UNEC
Azərbaycan Dövlət İqtisad Universiteti

Zal: Nağıyev

3 Dekabr 2026
14:00-15:30

VÖRKŞOP 4



Yalçın İslamzadə

Fizika müəllimi və təlimçi, Landau Məktəbi,
Azərbaycan

Mövzu:

Yüksək səviyyəli düşünmə bacarıqlarının inkişafı: Abstrakt təfəkkür, məntiqi mühakimə və süni intellekt

Xülasə:

Bu praktiki vorkşop təhsilin əsas suallarından birinə həsr olunacaq: Təhsil hansı düşünmə bacarıqlarını inkişaf etdirməlidir?

Vorkşopda yüksək səviyyəli düşünmə bacarıqlarına (Higher-Order Thinking Skills – HOTS) diqqət yetirilərək müasir təhsildə abstrakt təfəkkürün, məntiqi mühakimənin, tənqidi düşünmənin və problem həll etmə bacarıqlarının əhəmiyyəti müzakirə olunacaq.

Bu bacarıqların inkişafına yönəlmiş praktik tədris strategiyaları nəzərdən keçiriləcək, həmçinin süni intellektin yüksək səviyyəli düşünmə bacarıqlarını necə dəstəkləyə biləcəyi və tədris və öyrənmə prosesinin təkmilləşdirilməsinə hansı imkanlar yaratdığı araşdırılacaq.

MƏRUZƏÇİLƏRİN BİOQRAFİYALARI

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Professor Virginia Dignum

Umeå Universitetinin məsuliyyətli süni intellekt üzrə Vallenberq professoru, AI Policy Lab tədqiqat laboratoriyasının direktoru

İsveç

Virginia Dignum İsveçin Umeå Universitetində məsuliyyətli süni intellekt üzrə professordur və AI Policy Lab-a rəhbərlik edir. Qlobal süni intellekt siyasətinin aparıcı ekspertlərindəndir; ACM-in Texnologiya Siyasəti Şurasına sədrlik edir və İsveçdə Wallenberg fondlarına məsləhətlər verir. UNESCO və OECD-nin ekspert qruplarında iştirak edir; Avropa İttifaqının Süni İntellekt üzrə Yüksək Səviyyəli Ekspert Qrupunun, BMT-nin Süni İntellekt üzrə Yüksək Səviyyəli Məsləhət Orqanının və Dünya İqtisadi Forumunun Süni İntellekt üzrə Qlobal Gələcək Şurasının üzvü olmuşdur. Niderland Süni İntellekt Alyansı olan ALLAI-nin təsisçisidir. UNESCO-nun “Sərhədsiz süni intellekt etikası ekspertləri” təşəbbüsü çərçivəsində müxtəlif ölkələrin hökumətlərinə milli süni intellekt strategiyalarının hazırlanması və həyata keçirilməsi üzrə məsləhət verir. Onun “The AI Paradox” adlı son kitabı 2026-cı ilin fevralında Princeton University Press nəşriyyatında çap olunmuşdur.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Ravit Gonen

Təhsil texnologiyaları və süni intellekt məhsullarının inkişafı üzrə rəhbər

SKAYA Ltd., İsrail

Ravit Gonen məhsul idarəetməsi, istifadəçi təcrübəsinin (UX) layihələndirilməsi və rəqəmsal təhsil innovasiyaları sahələrində 15 ildən artıq təcrübəsi olan təhsil texnologiyaları və süni intellekt məhsulları üzrə rəhbərdir. SKAYA Ltd.-də qabaqcıl texnologiyaları pedaqoji prinsiplərlə birləşdirən süni intellekt əsaslı təhsil həllərinin hazırlanmasına rəhbərlik edir. Eyni zamanda Sapir Kollecində mürəkkəb sistemlərin layihələndirilməsi, məlumatların vizuallaşdırılması və süni intellektin inteqrasiyası üzrə ixtisaslaşmış müəllimdir. Onun ekspert olduğu sahələrə insanyönümlü süni intellekt, təlimin layihələndirilməsi və təhsil innovasiyaları daxildir. İsrailin Ben-Qurion Universitetində təhsil üzrə bakalavr dərəcəsi almışdır.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Professor Simon Walker

Fəxri professor

London Universitet Kollecinin (UCL) Təhsil İnstitutu, Böyük Britaniya

Professor Simon Walker ali təhsildə innovasiyalar, tədrisin təkmilləşdirilməsi və institusional transformasiya sahələrində beynəlxalq səviyyədə tanınmış ekspertdir. Hazırda London Universitet Kollecinin (UCL) Təhsil İnstitutunda fəxri professor kimi fəaliyyət göstərir. O, əvvəllər UCL-də proqramların inkişafı üzrə direktor vəzifəsində çalışıb, həmçinin London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi (LSE), London Kral Kolleci və Sauthempton Universitetində müxtəlif rəhbər və məsləhətçi vəzifələr tutub. Jisc təşkilatında baş məsləhətçi kimi fəaliyyət göstərib. Onun son tədqiqatları ali təhsildə qiymətləndirmə sistemlərinin təkmilləşdirilməsi, generativ süni intellektin tədrisdə tətbiqi, xüsusilə autentik qiymətləndirmə, təhsil proqramları səviyyəsində yanaşmalar və institusional təcrübələrin inkişafı istiqamətlərinə yönəlib. O, Asiya və Afrikada Dünya Bankı və Britaniya Şurasının (British Council) maliyyələşdirdiyi dövlət layihələrində iştirak edib, Qazaxıstan, Qırğızıstan və Çin universitetləri ilə əməkdaşlıq edib. Milli Tədris Təqaüdü (National Teaching Fellowship) mükafatının laureatı və Advance HE təşkilatının üzvü olan professor Simon Walker tədrisin layihələndirilməsi, təhsil proqramlarının inkişafı və müəllim–tələbə əməkdaşlığı sahələrinə mühüm töhfələr verib. O, Böyük Britaniyada “Students as Change Agents” şəbəkəsinin həmtəsisçisi, Journal of Educational Innovation, Partnership and Change jurnalının təsisçi redaktoru və Academic Practice and Technology (APT) konfransının təsisçilərindən biridir.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Dosent Anat Cohen

Elm və Texnologiya Təhsili Mərkəzinin (SATEC) rəhbəri,
Tel-Əviv Universiteti, İsrail

Anat Cohen Tel-Əviv Universitetinin dosentidir. Burada Müəllim Hazırlığı Bölməsinə rəhbərlik edir və UNESCO-nun "Texnologiya, Beynəlmiləlləşmə və Təhsil" kafedrasının müdiridir. Eyni zamanda Elm və Texnologiya Təhsili Mərkəzinə (SATEC) rəhbərlik edir. Tədqiqatları təhsildə süni intellekt, texnologiya dəstəkli öyrənmə, təlim analitikası və müəllimlərin peşəkar inkişafına yönəlmişdir. Təhsil innovasiyaları, beynəlxalq tədqiqat əməkdaşlığı və generativ süni intellektin tədrisə, öyrənməyə və qiymətləndirməyə inteqrasiyası üzrə geniş təcrübəyə malikdir. Tel-Əviv Universitetində təhsil üzrə fəlsəfə doktoru dərəcəsi almış, Kaliforniya Dövlət Universitetinin Fullerton kampusunda doktoranturadan sonrakı tədqiqat aparmışdır.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Dr. Xaləddin Rzayev

Maliyyə üzrə baş müəllim

Edinburq Universiteti, Böyük Britaniya

Dr. Xaləddin Rzayev Edinburq Universitetində maliyyə üzrə baş müəllim və Edinburq Maliyyə İnnovasiyaları Mərkəzinin təhsil istiqaməti üzrə həmdirektorudur. Onun elmi tədqiqatları maliyyə bazarlarında maşın öyrənməsi və süni intellektin tətbiqi, bazar mikrostrukturu, yüksək tezlikli və qapalı ticarət, eləcə də maliyyə ekonometrikası sahələrini əhatə edir.

Tədqiqatları Journal of Financial Economics, Journal of Financial Markets, Journal of Corporate Finance və European Journal of Operational Research kimi nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunub.

O, maliyyə sahəsində süni intellekt və maşın öyrənməsi üzrə tədqiqatları ilə yanaşı, Edinburq və Koç universitetlərində akademik fəaliyyət göstərir. Edinburq Universitetində maliyyə üzrə fəlsəfə doktoru (PhD) elmi dərəcəsi alıb.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Dr. Einat Gil

Təhsildə innovasiyalara rəhbərlik üzrə strateji məsləhətçi,
İsrail

Dr. Einat Gil təhsildə innovasiyalara rəhbərlik, təlimin layihələndirilməsi və süni intellekt sahələrində ixtisaslaşmış təhsil rəhbəri, tədqiqatçı və məsləhətçidir. İsrail Təhsil Nazirliyinin Təhsildə Süni İntellekt üzrə Tətbiqi Tədqiqatlar İnstitutunda baş tədqiqatçı olmuşdur. Pedaqoji kolleclərdə tədris və öyrənmə innovasiyaları mərkəzlərini yaradaraq onlara rəhbərlik etmiş, eyni zamanda müəllim kimi çalışmışdır. Hayfa Universitetində təhsil texnologiyaları üzrə magistr və riyaziyyat təhsili üzrə fəlsəfə doktoru dərəcələri almış, Toronto Universitetində və Fields İnstitutunda doktoranturadan sonrakı tədqiqat proqramlarını tamamlamışdır.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Dr. Vüsalə Əfəndiyeva

UNEC-in süni intellekt layihəsinin yerli rəhbəri,
Azərbaycan Dövlət İqtisad Universiteti,
Azərbaycan

Dr. Vüsalə Əfəndiyeva Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) baş müəllim və UNEC-in süni intellekt layihəsinin yerli rəhbəridir. Ali təhsil, beynəlxalq akademik əməkdaşlıq, təhsilin idarə edilməsi və institusional layihələrin icrası sahələrində geniş təcrübəyə malikdir. Hazırkı fəaliyyəti ali təhsildə süni intellektin inteqrasiyası təşəbbüslərinin əlaqələndirilməsinə və institusional potensialın inkişafına yönəlmişdir. Əvvəllər Azərbaycan Dillər Universitetinin Skandinaviya Mərkəzinin direktoru kimi Şimali Avropa universitetləri ilə akademik tərəfdaşlıqlara rəhbərlik etmişdir. Beynəlxalq münasibətlər tarixi üzrə fəlsəfə doktorudur. Corc Vaşinqton Universitetində təhsil və insan inkişafı, Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsilin idarə edilməsi, Azərbaycan Dillər Universitetində isə Avropaşünaslıq və beynəlxalq münasibətlər üzrə magistr dərəcələri almışdır. Konfransda ali təhsildə məsuliyyətli süni intellekt üzrə panel müzakirəsinə moderatorluq edəcək, UNEC-də süni intellekt assistentinin tətbiqi və Təlimin İdarə Edilməsi Sisteminin (LMS) inteqrasiyası üzrə institusional təcrübəni təqdim edəcək.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Professor Pedro Reis

Təbiət fənlərinin tədrisi üzrə mütəxəssis, professor,

Lissabon Universiteti, Portuqaliya

Professor Pedro Rocha dos Reis Lissabon Universitetində elm tədrisi üzrə professordur. Didaktika üzrə Tədqiqat Qrupunun fəaliyyətinə, eləcə də təbiət elmlərinin tədrisi üzrə doktorantura və təhsildə innovasiyalar üzrə magistr proqramlarının təşkilinə və həyata keçirilməsinə rəhbərlik edir. Tədqiqatları innovativ tədris metodları, müəllimlərin peşəkar inkişafı, fəal vətəndaşlıq və rəqəmsal texnologiyalarla generativ süni intellektin təhsilə inteqrasiyasını əhatə edir. Avropa, Afrika və Cənubi Amerikada təhsil tədqiqatları, kurikulumların hazırlanması və müəllim hazırlığı üzrə geniş beynəlxalq təcrübəyə malikdir. Əsərləri ilə elm tədrisi, ekoloji məsuliyyətli vətəndaşlıq anlayışının formalaşdırılması və rəqəmsal texnologiyaların tədrisdə tətbiqi sahələrinin inkişafına mühüm töhfələr vermişdir. Son tədqiqatları generativ süni intellektin təhsildə tətbiqinə, tələbə fəallığına və innovativ pedaqoji yanaşmalara həsr olunmuşdur. Lissabon Universitetində təbiət elmləri təhsili üzrə fəlsəfə doktoru dərəcəsi almışdır.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Nadine Salkeld

Mərkəz və portfel üzrə menecer,
Edinburq Universiteti, Böyük Britaniya

Nadine Salkeld maliyyə sahəsində zəngin peşəkar təcrübəyə malikdir və Edinburq Universitetinin Biznes Məktəbində tədqiqat mərkəzlərinin və layihələr portfelinin idarə olunması üzrə menecer vəzifəsində çalışır. Edinburq Universitetinin Maliyyə İnnovasiyaları Mərkəzinin, Kredit Tədqiqatları Mərkəzinin və Təbiət Maliyyəsi Laboratoriyasının fəaliyyətinin təşkilinə və inkişafına dəstək verir. İnvestisiyaların idarə edilməsi, maliyyə xidmətləri, bank əməliyyatları, risklərin idarə olunması və proqram rəhbərliyi üzrə otuz ildən artıq beynəlxalq təcrübəyə malikdir. Morgan Stanley, AIB Govett Asset Management və digər maliyyə qurumlarında rəhbər vəzifələrdə çalışaraq portfel və strateji idarəetmə, institusional əməkdaşlıq sahələrində geniş təcrübə qazanmışdır. Edinburq Universitetində elmi tədqiqatlarla maliyyə sektoru arasında əməkdaşlığın inkişafına, müxtəlif elm sahələrini birləşdirən tədqiqat təşəbbüslərinin həyata keçirilməsinə və yeni tərəfdaşlıq əlaqələrinin qurulmasına töhfə verir. Heriot-Watt Universitetində MBA, Edinburq Universitetində fərqlənmə diplomu almış və ASIP (CFA UK) kvalifikasiyasına malikdir.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Tamerlan Rəcəbov

(ADPU–Corc Vaşinqton Universiteti ikili diplom proqramı),

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, Azərbaycan

Tamerlan Rəcəbov beynəlxalq inkişaf, tədqiqat və ali təhsil sahələrində 15 ildən artıq təcrübəsi olan monitorinq, qiymətləndirmə və məlumat təhlili üzrə mütəxəssisdir. O, 2006-cı ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayaraq, on ildən artıq müddətdə Azərbaycanın müxtəlif universitetlərində statistika, tədqiqat metodları və məlumatlara əsaslanan qərar qəbuletmə fənlərini tədris etmişdir. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə Corc Vaşinqton Universitetinin birgə magistratura proqramında dərs deyir. Onun tələbələrinin əksəriyyətini hazırda pedaqoji fəaliyyətlə məşğul olan müəllimlər təşkil edir. O, əvvəllər ADA Universitetində və Azərbaycan Universitetində də dərs demişdir. Tamerlan Rəcəbov tədris, öyrənmə və qiymətləndirmə proseslərinin effektivliyini artırmaq məqsədilə süni intellekt texnologiyalarını pedaqoji fəaliyyətinə inteqrasiya edir, eyni zamanda tələbələr arasında süni intellektdən məsuliyyətli istifadə və akademik dürüstlük prinsiplərini təşviq edir. O, təxminən on il ərzində UNICEF-in Azərbaycandakı nümayəndəliyində planlaşdırma, monitorinq və qiymətləndirmə üzrə mütəxəssis, həmçinin sosial siyasət və innovasiyalar istiqaməti üzrə əlaqələndirici şəxs kimi fəaliyyət göstərmişdir. Onun təşəbbüsü ilə Azərbaycanda 23 illik fasilədən sonra Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsi bərpa edilmiş və əldə olunan məlumatlar dövlət tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) 23 göstəricisi üzrə hesabatların hazırlanmasında istifadə olunmuşdur. Hazırda o, UNICEF-ə beynəlxalq sorğuların həyata keçirilməsi üzrə texniki ekspert dəstəyi göstərir. Son dövrlərdə Şimali Makedoniya və Maldiv adalarında müvafiq layihələrdə iştirak etmişdir. Bununla yanaşı, sübutlara əsaslanan məlumatların sistemləşdirilməsi və qiymətləndirmə proseslərində süni intellekt alətlərindən istifadə edir. Tamerlan Rəcəbov ABŞ-nin Sent-Luis şəhərində yerləşən Vaşinqton Universitetində sosial iş üzrə magistr (Master of Social Work), Böyük Britaniyanın Mançester Universitetində isə magistr (MSc) dərəcəsi almışdır.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Leehee Feldman

Texnologiyaların tənzimlənməsi və innovasiya üzrə strateji hüquq məsləhətçisi,
təhsildə süni intellekt etikası, məxfilik və siyasət,
İsrail

Leehee Feldman dövlət siyasəti, texnologiyaların hüquqi tənzimlənməsi və idarəetmə sistemlərinin inkişafı sahələrində 20 ildən artıq peşəkar təcrübəyə malik hüquq və strateji idarəetmə üzrə məsləhətçidir. Onun ixtisaslaşdığı sahələrə təhsil sektoru, yeni texnologiyalar və süni intellekt etikası daxildir. Son illərdə İsrail Təhsil Nazirliyinin Təhsildə Süni İntellektin İnteqrasiyası üzrə Milli Proqramı çərçivəsində hüquqi tənzimləmə işlərinə rəhbərlik etmiş, süni intellektin tədris prosesində məsuliyyətli tətbiqini təmin etmək məqsədilə müvafiq siyasət və qaydaların hazırlanması, risklərin idarə edilməsi və etik prinsiplərin müəyyənləşdirilməsi istiqamətində fəaliyyət göstərmişdir. Dövlət sektorunda irimiqyaslı mürəkkəb texnoloji təşəbbüslərə hüquqi məsləhət vermiş, innovativ tənzimləmə modellərini təhlil etmiş və təhsildə əsas rəqəmsal transformasiya layihələrini dəstəkləmişdir. Karyerası dövründə dövlət və beynəlxalq təşkilatlara geniş rəqəmsal keçid, texnologiya satınalmaları və milli kibertəhlükəsizlik strategiyaları üzrə məsləhətlər vermişdir. Tel-Əviv Universiteti və Northwestern Universitetinin Kellogg–Recanati proqramında yüksək texnologiyaların idarə edilməsi üzrə MBA, Qüds İvrit Universitetində hüquq üzrə bakalavr dərəcəsi almışdır.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Roi Shillo

Angelina AI şirkətinin həmtəsisçisi və baş icraçı direktoru

İsrail

Roi Shillo təhsil texnologiyaları, süni intellekt və rəqəmsal transformasiya sahələrində 20 ildən artıq təcrübəsi olan texnologiya rəhbəridir. Angelina AI şirkətinin həmtəsisçisi və baş icraçı direktoru kimi təhsil və biznes üçün süni intellekt əsaslı intellektual həllərin hazırlanmasına rəhbərlik edir. Təhsildə Süni İntellekt üzrə Milli Proqramda süni intellekt texnologiyaları üzrə rəhbər və Milli Test və Qiymətləndirmə İnstitutunda isə süni intellekt proqramının rəhbəri vəzifələrində çalışmışdır. Onun ixtisas sahələrinə generativ süni intellekt, fərdiləşdirilmiş öyrənmə, intellektual repetitor sistemləri və genişmiqyaslı təhsil platformaları daxildir. İsrail Açıq Universitetində təlim texnologiyaları üzrə magistr dərəcəsi almışdır.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Yalçın İslamzadə

Fizika müəllimi və müəllim təlimçisi,
Landau Məktəbi, Azərbaycan

Yalçın İslamzadə beynəlxalq məktəblərdə elm tədrisi sahəsində təcrübəyə malik təhsil mütəxəssisi, kurikulum və dərslik müəllifidir. O, Türkiyənin Orta Doğu Texniki Universitetində fizika üzrə təhsil almış, Qazi Universitetində nüvə fizikası ixtisası üzrə magistr dərəcəsi əldə etmişdir. 2003–2006-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun Nüvə Fizikası Laboratoriyasında fəaliyyət göstərmişdir.

Peşəkar fəaliyyəti ərzində ADA Universitetində və Azərbaycan Dövlət Pedaqoji Universitetində dərs demiş, Oxbridge Academy-də Elm Departamentinin rəhbəri, müəllim və Bakı İstanbul Liseyində müəllim kimi çalışmışdır. Hazırda Landau məktəbində müəllim kimi fəaliyyətini davam etdirir.

2020-ci ildən etibarən Elm və Təhsil Nazirliyinin fizika və həyat bilgisi fənləri üzrə kurikulum və dərsliklərin yenilənməsi layihələrində dərslik müəllifi kimi iştirak edir. Həmçinin təbiət elmləri üzrə kurikulum və dərslik islahatlarında müəllif və məzmun redaktoru kimi fəaliyyət göstərmişdir.

Yalçın İslamzadə elmi biliklərin populyarlaşdırılması ilə də məşğuldur. Karl Saqan, Stiven Hokinq, Albert Eynşteyn və Riçard Feynman kimi tanınmış alimlərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Onun peşəkar maraq dairəsinə təbiət elmlərinin tədrisi, kurikulumların hazırlanması, elmi düşüncənin inkişafı və elmin cəmiyyətə çatdırılması daxildir.

KONFRANS MƏRUZƏÇİLƏRİNİN BİOQRAFİYALARI



Anara Sahiboğlu

Pedaqoji ekspert
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Azərbaycan

Anara Sahiboğlu Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Süni İntellekt Layihəsində pedaqoji ekspert kimi fəaliyyət göstərir. O, universitetin professor-müəllim heyəti, inzibati əməkdaşları və tələbələri üçün süni intellekt savadlılığı proqramlarının hazırlanmasında, bu proqramların tədris proqramları və qiymətləndirmə sistemləri ilə əlaqələndirilməsində, eləcə də süni intellektin tədris və öyrənmə proseslərinə inteqrasiyasında iştirak edir. Bununla yanaşı, süni intellektlə bağlı layihələrin planlaşdırılması, tətbiqi və icra prosesinin monitorinqinə dəstək verir. Onun peşəkar təcrübəsinə beynəlxalq məktəbdə " İngilis dili ikinci dil kimi tədrisi (EAL)" şöbəsinə rəhbərlik, fənlərarası tədris proqramlarının hazırlanması, müəllimlərin peşəkar inkişafı və akademik fəaliyyətin koordinasiyası daxildir. Anara Sahiboğlu Corc Vaşinqton Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil menecmenti üzrə magistr təhsili alıb. Onun peşəkar maraqları interaktiv tədris və öyrənmə metodlarının inkişafı, tədrisin keyfiyyətinin yüksəldilməsi və süni intellektin pedaqoji proseslərə səmərəli inteqrasiyasıdır.